Astara Pedaqoji Kollecində 2019/2020 tədris ilinin yaz imtahan sessiyasının təşkili qaydaları

20.05.2020-ci il tarixli 01-11-523/15 nömrəli məktubunuza əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus (COVİD-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə" 18.05.2020-ci il tarixli 179 nömrəli Qərarı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bir sıra qərarlarına edilmiş dəyişikliklərdən irəli gələn tələblərin icrası ilə bağlı aşağıdakı təkliflərimizi təqdim edirik:

1. Subbakalavriat səviyyəsində pedaqoji və diplomqabağı təcrübənin qiymətləndirilməsini ixtisasa uyğun tədris olunan pedaqogika, psixologiya və ixtisas fənləri üzrə tələbənin nəticələrinin orta balı əsasında aparılmasına;
2. Subbakalavriat səviyyəsində ÜOMG-yə uyğun olaraq çıxarılmış yekun dövlət attestasiyanın nəticələri ilə razılaşmayan tələbələr üçün ixtisas üzrə dövlət imtahanının iyun ayının 30-dan iyul ayının 5-dək onlayn qaydada təşkilinə;
3. Subbakalavriat səviyyəsində imtahan sessiyasının təşkili, tələbələrin biliyinin cari və aralıq qiymətləndirilməsini aşağıdakı qaydalarla tənzimlənməsinə:
    - Aralıq qiymətləndirmənin aparılması üçün 8 iyun 2020-ci il tarixindən 5 həftə müddətində imtahan sessiyasının onlayn qaydada təşkil edilsin. Hər fənn üzrə tələbənin biliyinin maksimum 50 balla qiymətləndirilməsi və tələbənin imtahan nəticəsinin 2 mislinin gtürülməsi;
    - İmtahanda iştirak üçün tələbənin təyin olunmuş vaxtda 5 sualı 2 saat müddətində yazılı formada cavablandırdıqdan sonra həmin cavabları elektron formada müəyyən olunmuş elektron ünvana yerləşdirməsi;
    - Birinci kurslarda böyük summativ qiymətləndirmənin onlayn qaydada təşkili; bütün fənlərdən hər fənn üzrə 20 sual olmaqla 90 dəqiqə vaxtın verilməsi və imtahan zamanı tələbənin biliyini maksimum 100 balla qiymətləndirməsi;
    - Tələbələrin müraciətləri olduğu halda (müraciətlər iyul ayının 5-nə qədər qəbul olunur) cari ilinin avqust ayının birindən 3-4 həftə müddətində kollecdə icmal mühazirələr (ödənişsiz əsaslarla) təşkil olunacaqdır;